# Şəhid ailələri və müharibə əlillərinin sosial təminatı diqqət mərkəzindədir

**_Prezident İlham Əliyev şəhid ailələri və müharibə əlillərinin sosial təminatının daha da gücləndirilməsini sosial siyasətin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Şəhid ailələri və müharibə əlillərinə dövlət qayğısının daha da artırılması dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir. Hazırda Azərbaycanda şəhid ailələrinin üzvləri üçün 20 birbaşa və təşviqedici dəstək mexanizmi icra olunur. Belə ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna uyğun olaraq, şəhid ailəsinə 11 min manat məbləğində sığorta ödənişi həyata keçirilir. Eləcə də dövlətimizin başçısının müvafiq fərmanına əsasən, 2007-ci il yanvarın 1-dən şəhid ailəsinə hazırda məbləği 300 manat olan Prezident təqaüdü ödənilir._**

Qeyd etmək istərdim ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, şəhidlərin ailə üzvlərinin əmək pensiyasının sığorta hissəsinə 93,5 manat məbləğində əlavə hesablanır. Ailə başçısını itirməyə görə mülki vətəndaşlara ödənilən əmək pensiyasının orta aylıq məbləği 240 manat, hərbi qulluqçuların ailələrinə ödənilən əmək pensiyasının orta aylıq məbləği isə 511 manat təşkil edir. Eyni zamanda, ailə başçısını itirməyə görə ailələrə ödənilən sosial müavinətin orta aylıq məbləği 240 manatdır.

Bütün bunlar ilə yanaşı, mənzil təminatı daxil olmaqla, fərqli dəstək mexanizmləri də uğurla icra olunmaqdadır. Şəhid və şəhid ailələrinə xərclənən vəsait icra hakimiyyətlərinin büdcəsindən, pensiya və müavinətlərə çəkilən xərclər isə Dövlət Sosial Müdafiə Fondu və dövlət büdcəsi hesabına yalnız nağdsız qaydada ödənilir.

Hazırda müharibə əlilləri üçün 12 birbaşa və təşviqedici güzəştlər mexanizmi icra olunmaqdadır. Belə ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna uyğun olaraq, birinci qrup müharibə əlillərinə 8800 manat, ikinci qrup müharibə əlillərinə 6600 manat, üçüncü qrup müharibə əlillərinə 4400 manat, ağır xəsarət (yaralanma, travma, kontuziya) alan müharibə iştirakçılarına 2750 manat və yüngül xəsarət (yaralanma, travma, kontuziya) alanlara isə 550 manat sığorta ödənişi həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə əmək pensiyası almaq hüququ olmayan "hərbi xidmət dövründə xəstələnmə", "hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar", "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" və "Azərbaycan Respublikası ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" səbəblərindən əlil olan I dərəcə əlilliyi olan şəxslərə 150 manat, II dərəcə əlilliyi olan şəxslərə 130 manat, III dərəcə əlilliyi olan şəxslərə 110 manat məbləğində sosial müavinət verilməsi müəyyən olunub.

Bununla bərabər, Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən I dərəcə əlilliyi olan şəxslərə 250 manat, II dərəcə əlilliyi olan şəxslərə 230 manat, III dərəcə əlilliyi olan şəxslərə 210 manat məbləğində olmaqla müharibə əlillərinə Prezident təqaüdü ödənilir.

Əlilliyə görə mülki vətəndaşlara ödənilən əmək pensiyasının orta aylıq məbləği 261 manat, hərbi qulluqçulara ödənilən əmək pensiyasının orta aylıq məbləği isə 515 manat təşkil edir. Eyni zamanda, müharibə əlilləri üçün pulsuz tibbi müalicə daxil olmaqla fərqli dəstək proqramları icra olunmaqdadır.

Göründüyü kimi, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq şəhid ailələri, müharibə əlilləri sosial təminat sistemi ilə hərtərəfli əhatə olunublar. Hazırda Prezidentin aylıq təqaüdü və digər sosial ödənişlərlə (pensiya, müavinət) təmin edilməklə yanaşı, həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edən bir çox sosial proqramlar da həyata keçirilir. Belə ki, şəhid ailələrinin üzvlərinin və müharibə əlillərinin övladları və özləri təhsil haqqı ödəməkdən azad edilir, protez və reabilitasiya vasitələri ilə pulsuz təmin olunur, onlara sanator-kurort müalicəsi üçün ildə 1 dəfə pulsuz göndərişlər verilir, aktiv məşğulluq proqramlarında (özünüməşğulluq, ödənişli ictimai işlər və s.) onlar diqqət mərkəzində saxlanılır.

Onu da vurğulamaq lazımdır ki, onların məşğulluğunun təmin edilməsi üçün bütün işəgötürənlər üçün (dövlət və özəl) məcburi kvota müəyyənləşdirilib. Şəhid ailəsi üzvləri, habelə müharibə əlilləri üçün vergi və əmək qanunvericiliyində bir sıra güzəştlər də nəzərdə tutulub.

Ən önəmlisi isə mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə mənzillər və fərdi evlər, habelə müharibə əlillərinə avtomobillər dövlət tərəfindən təqdim edilir. İndiyədək bu kateqoriyadan olan şəxslərə 9 minə yaxın mənzil və fərdi ev, habelə 7 mindən çox avtomobil verilib. Bu proqram hazırda uğurla davam etdirilir.

Bununla yanaşı, vətəndaş cəmiyyəti, biznes dairələri, ölkə vətəndaşları, xaricdə yaşayan soydaşlarımız da bu kateqoriyadan olan insanlara mümkün dəstəyi göstərmək üçün əllərindən gələni edirlər. Azərbaycan xalqı xeyirxahlıq, humanizm prinsiplərinə uyğun olaraq təmənnasız yardım ənənələrini davam etdirir, şəhid ailələrinin, hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə xüsusi həssaslıqla yanaşır, hər bir vətəndaş bu məsələyə öz dəyərli töhfəsini verməyə çalışır.

Məhz bu reallığı nəzərə alaraq, şəhid ailələrinin, hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması, bunun üçün müvafiq platformanın yaradılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu) yaradılması haqqında" Fərman imzalayıb.

Fond Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə, işğaldan azad olunmuş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, həmçinin hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət qurumlarının əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə müvafiq yardım göstərəcək.

Fondun vəsaitləri Azərbaycan vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşacaq.



Fondun vəsaitinin sərəncamçısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir.

Qurumun fəaliyyətində şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi, həmçinin fondun vəsaitinin formalaşması, habelə idarə olunmasına nəzarət məqsədilə tanınmış ictimaiyyət nümayəndələrinin daxil olduğu Himayəçilik Şurası yaradılır.

Fondun vəsaitləri şəhid ailəsi status alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanmasına, müalicə və psixoloji dəstək xərclərinin, təhsillə bağlı xərclərin ödənilməsinə, məişət şəraitinin yaxşılaşdırılmasına və digər istiqamətlərə yönəldiləcək.

Azərbaycan Prezidentinin fərmanı ilə "YAŞAT" Fondunun yaradılması dövlətimizin humanizm prinsiplərinə, əhalinin sosial təminatının və rifah halının daha da yaxşılaşdırılması siyasətinə sadiqliyinin, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə xüsusi həssas münasibətinin növbəti əyani təzahürüdür.

**_Vüqar BAYRAMOV,_**
**_Milli Məclisin deputatı_**